Tofiq Hüseynov
Azərbaycan Respublikasının əməkdar
iqtisadçısı, iqtisad elmləri doktoru, professor
UOT:31;33;330; 330.317.33; JEL:N14;F21;F18.

Azərbaycanın iqtisadi inkişafında institusional tənzimləmənin təkmilləşdirilməsi

Xülasə

Məqalədə ölkənin sosial-iqyisadi inkişafının tənzimlənməsində istifadə olunan normativ hüquqi baza, mərkəzi idarəetmə orqanlarının hüquq və vəzifələri, onların fəaliyyətinin koordinasiyası təhlil edilir və onların təkmilləşdirilməsi istiqamətləri əsaslandırılır. Tənzimləmə sistemində İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəzifələrinə və hüquqlarına xüsusi diqqət yetirilir. ABŞ-da, Yaponiyada, Türkiyədə və İsveçdə iqtisadiyyatın dövlət tənzimləməsi barədə təcrübələr verilir.

Açar sözlər: *iqtisadi tənzimləmə mexanizmləri, institusional tənzimləmə, idxal, ixrac, daxili bazarın mühafizəsi, indikativ planlaşdırma, amortizasiya ayırmaları, tarazlı regional inkişaf, sənaye klasterləri, ölkə səviyyəsində gəlirlərin ədalətli bölgüsü.*

Giriş

Azərbaycanda dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılması, iqtisadiyyatla məşğul olan mərkəzi idarəetmə orqanları arasında vəzifə bölgüsünün və koordinasiya sisteminin önəmli olmaması qədul edilmiş qərarların həyata keçirilməsində arzu olunan nəticələri verməmişdir. Məsələn, "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda 2020-ci ildə 2010-cu illə müqayisədə ölkənin ümumi daxili məhsulunun əsasən qeyri-neft sektorunun hesabına 2 dəfə artırılması və adambaşına 13 min dollara çatdırılması hədəflənmişdir. Ancaq bu dövrdə ümumi daxilin məhsulun artımı cəmisi 8,7 faiz, qeyri-neft sektorunda isə 13,7 faiz olmuşdur. 2020-ci ildə adambaşına ÜDM-in istehsalı 4272 dollar olmaqla, qəbul edilmiş hədəftən 3 dəfə az təşkil etmişdir. 2020-ci ilə dövlət proqnozunda ümumi daxili məhsulun adambaşına istehsalı "Azərbaycan-2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nın hədəfindən 3 dəfə az və ya 257 dollar nəzərdə tutulmuşdur. Bu göstərici də faktiki olaraq 68 faiz icra edilmiş və 174 dollar olmuşdur. İnkişaf Konsepsiyasının hədəflərindən biri də 2020-ci ilə qədər Azərbaycanın iqtisadi və siyasi cəhətdən inkişaf etmiş ölkə olmasını təmin etməkdən ibarət olmuşdur. 2017-ci ildə ölkə başcısı demişdir: "Dünyanın ən inkişaf etmiş ölkələrinin meyarlarının Azərbaycanda tətbiqi mütləqdir". Hal-hazırda həmin meyarların heç birinə Azərbaycanda nail olunmamışdır. Belə ki, 2020-ci ilə qədər inkişaf etmiş ölkəyə çevrilməyi hədəfləmiş Azərbaycanın sənaye istehsalında emal sənayesinin xüsusi çəkisi 25-30 faiz təşkil etmişdir. İnkişaf etmiş ölkələrdə bu göstərici 65-70 faizə bərabər olur. ÜDM-in xidmət sektorunda yaranan hissəsi 70 faiz əvəzinə Azərbaycanda 35-40 faiz civarındadır.İqtisaiyyatda məşğul olanların 36 faizdən çoxu aqrar sektorda işləyir və ildən ilə də artır. İnkişaf etmiş ölkələrdə bu göstərici 1-3 faiz səviyyəsindədir. 2020-ci ilə inkişaf konsepsiyasının qeyri-neft sektorunun məhsul ixracının adambaşına 1000 dollara çatdırılması barədə əsas hədəfə nail olunmamışdır. Faktiki 174 dollar və ya qəbul edilmiş hədəfdən 6 dəfə az olmuşdur. 2021-ci ildə isə ancaq 254 dollara çatmışdır. İstehlak mallarının idxalı ilbəil artaraq, 2021-ci ildə 5 milyard dollar təşkil etmiş və ixracdan dəfələrlə çox olmaqla, mənfi saldo yaranmışdır. Bütünlükdə, idxalın 50 faizi istehlak malları olmuşdur. 1,7 milyard dollar dəyərində ərzaq məhsulları idxal edilmişdir. Yuxarıda deyilənləri nəzərə almaqla, iqtisadi-sosial inkişaf siyasətinin hədəflərinə nail olmaq üçün Azərbaycan dövlətinin iqtisadi tənzimləmə mexanizmlərində təkmilləşdirmələrin həyata keçirməsi, təsərrüfat subyektlərinin, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, iqtisadi fəaliyyətinin

tənzimlənməsinin, koordinasiyasının və ona dövlət tərəfindən nəzarət edilməsinin gücləndirilməsi zəruridir.

Əsas mətn

İqtisadiyyatın dövlət idarəçiliyinə və instisional islahatlara, dövlət nəzarəti sisteminin təkmilləşdirilməsinə, inkişafın təmin edilməsinə, tarazlı reqional iqtisadi-sosial siyasətə, aqrar sahədə kooperativlərin yaradılmasına, emal sənayesində məşğulluğun artırılmasına və ölkədə yoxsulluğin azaldılması problemlərinə xüsusi diqqət yetirilməlidir. Hesab edirik ki, Strateji Yol Xəritəsində nəzərdə tutulduğu kimi, iqtisadi inkişafın yüksək səviyyədə koordinasiyası təmin edilməli, idarəetmə strukturu və mexanizmləri təkmilləşdirilməli və iqtisadi fəaliyyətə dövlət nəzarəti gücləndirilməlidir. Burada iqtisadiyyatın dövlət tənzimlənməsinə aid bəzi ölkələrin təcrübəsini diqqətə çatdırmağı zəruri hesab edirəm. Beynəlxalq təcrübə və iqtisadi nəzəriyyə göstərir ki, dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsi istiqamətləri zaman-zaman dəyişilir və ölkədə yaranmış iqtisadi durumdan asılı olaraq müəyyən edilir. Burada Çin iqtisadi islahatlarının görkəmli arxitektoru Den Syaopinin kəlamını diqqətə çatdırmaq istəyirəm. O, demişdir: "правильной считать только такую политику, которая обеспечивает экономическую эффективность, что «неважно какого цвета кошка, лишь бы она сумела ловить мышей». XX əsrin 30-cu illərinə qədər dövlətin iqtisadiyyata müdaxilə etməməsi konsepsiyasını həyata keçirən ABŞ-da dəhşətli böhran ölkəni möhkəm silkələdi. 1932-ci ildə prezident seçilən Ruzveltin fərmanı ilə bütün banklar bağlanıldı, sənayenin və kənd təsərrüfatının inkişafı və tənzimlənməsi haqqında qanunlar qəbul olundu və digər dövlət tənzimləmə tədbirləri həyata keçirildi. Onun ilk fərmanlarından biri kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərinin dövlət tərəfindən təsdiq edilməsi olmuşdur. Bu qayda indi də qüvvədədir. Əsas kənd təsərrüfatı məhsullarının istehsal planı təsdiq olundu. Ölkə daxilində satışda problem yaranmamasından ötrü ərzaq məhsullarının idxalına dövlət nəzarəti həyata keçirildi. Ruzvelt iqtisadçılardan, hüquqşünaslardan, təcrübəli administratorlardan ibarət "beyin tresti" yaratdı. İqtisadi oyun və biznes qaydalarının təsdiq olunmasında Amerika dövləti indi də mühüm rol oynayır.

XIX-əsrin əvvəllərindən Yaponiyada kapitalist sənayesini yaratmaq üçün kompleks tədbirlər həyata keçirilmiş, o cümlədən dövlət müəssisələrinin tikilməsinə başlanılmışdır. Özəl müəssisələrə subsidiyalar verilmiş və ölkədə yüksək müdafiə rüsumları tətbiq edilmişdir. Bu siyasət XX əsrin 30-cu illərində daha da gücləndirilmişdir. Yapon iqtisadi modeli hökumətin və özəl sektorun fəaliyyətinin inkişaf etmiş planlaşdırılması və koordinasiyası ilə fərqlənir. 1950-1960-cı illərdə Turkiyədə Adnan Menderes hökuməti dövründə dövlətin pul vəsaitləri, bir qayda olaraq, kənd təsərrüfatına yönəldildi. 1960-1970-ci illərdə Cənubi Koreyada iqtisadiyyata kapital qoyuluşunun ümumi həcmində dövlət bölməsinin payı 90%-ə çatmışdı. İngiltərədə mövcud qaydaya əsasən dövlət korporasiyasına dövlət tərəfindən verilən kapital dövlətə divident gətirir. İsveç sistemi iqtisadi stabilliyin və gəlirlərin bölüşdürülməsinin təmin olunmasında dövlətin fəal iştirakı ilə xarakterizə olunur. 2018-ci ilin aprel ayının ortalarında Azərbaycan Respublikası Prezident Adminstrasiyasının o zamankı rəhbəri akademik R.Mehdiyev "Azərbaycan" qəzetində dərc edilmiş "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri" adlı əsərində idarəetmə sistemində institusional islahatların aparılmasının zərurililiyinə xüsusi diqqət yetirmişdir. O, haqlı olaraq vurğulayır ki, institusional islahatlar birinci növbədə dövlət strukturlarının tənzimləyici rolunun gücləndirilməsini təmin etməlidir. Bu məqsədlə, akademikin fikrincə, islahatlar hər şeydən öncə iqtisadi idarəetmə və tənzimləmə "yükünün" dövlət orqanları arasında "səmərəli" və "ədalətli" bölgüsünə, iqtisadi yönümlü dövlət orqanlarının fəaliyyətinin səmərəli

koordinasiyasının təmin edilməsinə, onların hüquq və səlahiyyətləri ilə məsuliyyətlərinin balanslaşdırılmasına yönəldilməlidir. Elə burada Azərbaycanda idarəetmə "yükünün" bölgüsünün səmərəli olmadığına aid faktı diqqətə çatdırmaq istəyirəm.

İqtisadiyyat Nazirliyinin 2014-cü ilin fevral ayında təsdiq edilmiş "Əsasnamə"sində 19 adda fəaliyyət istiqaməti, 79 bənddən ibarət, o cümlədən investisiya fəaliyyəti üzrə 8 bənddən, sənaye üzrə 10 bənddən, sahibkarlıq üzrə 11 bənddən, xarici iqtisadi əlaqələr üzrə 16 bənddən ibarət vəzifəsi nəzərdə tutulmuşdur. "Əsasnamə"yə görə sosial-iqtisadi inkişafın konsepsiyalarının və dövlət proqramlarının hazırlanması, icrasının əlaqələndirilməsi və icraya nəzarətin həyata keçirilməsi nazirliyin vəzifələrindən olmuşdur. Ölkə prezidentinin 2019-cu il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Əsasnamə"ilə nazirliyə 15 fəaliyyət sahəsi üzrə dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı statusu verilmişdir (cədvəl 1). "Əsasnamə"də nazirliyin 23 adda fəaliyyət istiqaməti, 105 bənddən ibarət vəzifəsi nəzərdə tutulmuşdur. Xarıcı ticarət üzrə 15 bənddən, investisiya üzrə 9 bənddən, sahibkarlıq fəaliyyəti üzrə 8 bənddən, sənaye üzrə 7 bənddən ibarət nazirliyin vəzifəsi müəyyən edilmişdir. Əvvəlki "Əsasnamə" ilə müqayisədə yeni əsasnamə ilə nazirliyin fəaliyyət istiqaməti və vəzifəsi 1,2-1,3 dəfə artırılmışdır. 1 saylı cədvəldən görünür ki, Nazirlər Kabinetinin ölkə Konstitusiyası ilə təsbit edilmiş vəzifələri İqtisadiyyat Nazirliyinə həvalə edilmişdir. Belə ki, 15 fəaliyyət sahəsi üzrə, o cümlədən Azərbaycanda iqtisadi siyasətin formalaşdırılması, iqtisadi artımın təmin edilməsi üçün əlverişli şəraitin yaradılması, investisiya siyasətinin təşviqi, sahibkarlığın və sənayenin inkişafı, lisenziya və icazə sisteminin tənzimlənməsi, inhisarçılığın qarşısının alınması, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, vergilərin və digər icbari ödənişlərin tam yığılması, dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi, torpaqların dövlət idarəetməsinin təşkili, daşınmaz əmlakın dövlət reyestrinin və vahid dövlət kadastrının aparılması sahələrində İqtisadiyyat Nazirliyi dövlət siyəsətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır ("Əsasnamə", bənd 1.1). Hesab edirəm ki, bu 15 sahədən ancaq biri, yəni makroiqtisadi proqnozların hazırlanması və onların icrasına nəzarət nazirliyin səlahiyyətinə aid edilməlidir. Qalan sahələrdə dövlət siyasətini və tənzimləməni həyata keçirən orqan Nazirlər Kabineti olmalıdır (Azərbaycan Respublikasının Konstitusiyası, maddə 114). Bütün bu 14 istiqamət üzrə mövcud dövlət idarəetmə strukturları müstəqil qurum olmaqla, Nazirlər Kabineti qarşısında cavabdeh olmalıdırlar. Bu strukturların rəhbərləri də Nazirlər Kabinetinin tərkibinə daxil olmalıdırlar (Konstitusiya, maddə 115).

Dövlət iqtisadi proqramlarının və dövlət sosial təminat proqramlarının həyata keçirilməsinin təmin edilməsi Konstitusiya ilə Nazirlər Kabinetinin səlahiyyətinə daxil edilmişdir (addə 119). Heç də aydın deyil, bu vəzifə nə üçün həm də İqtisadiyyat Nazirliyinə həvalə edilmişdir ("Əsasnamə", bənd 2.0.4). 15 fəaliyyət sahəsində dövlət siyasətinin və tənzimləmənin həyata keçirilməsi İqtisadiyyat Nazirliyinə həvalə edildiyinə görə müvafiq dövlət qurumları da ya ona tabe edilmiş, ya da onun strukturuna daxil edilmişdir. Belə qurumlar Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən, İqtisadi Zonaların İnkişafı Agentliyindən, "Azərbaycan Respublikasının Sahibkarlığın İnkişaf Fondu" və "Azərbaycan İnvestisiya Şirkəti" ASC əsasında 2021-ci ildə yaradılmış Sahibkarlığın İnkişaf Fondundan, Dövlət Vergi Xidmətindən, Əmlak Məsələləri Dövlət Xidmətindən və s. ibarətdir.

Cədvəl 1.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin və İqtisadiyyat Nazirliyinin fəaliyyət sahələri

Konstitusiya ilə Nazirlər Kabineyinin vəzifələri	2019-cu ildə təstiq edilmiş "Əsasnamə"ilə İqtisadiyyat Nazirliyi aşağıdakı istiqamətlər üzrə dövlət siyasətini və tənzimləməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır
Dövlət büdcəsinin layihəsini hazırlayıb ölkə prezidentinə təqdim edir	İqtisadi siyasətin formalaşdırılması
Dövlət büdcəsinin icrasını təmin edir	Makroiqtisadi proqnozların hazırlanması
Maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir	İqtisadi artımın təmin edilməsi üçün əlverişli şəraitin yaradılması
Dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir	İnvestisiya sahəsində dövlət siyasətini həyata keçirmək
Dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir	Sahibkarlığın və sənayenin inkişafı
Nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir	Lisenziya və icazə sisteminin tənzimlənməsi
Ölkə prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələri həll edir.	İnhisarçılığın qarşısının alınması
	Haqsız rəqabətin aradan qaldırılması
	İstehlakçıların hüquqlarının qorunması
	Dövlət vəsaiti hesabına malların, işlərin, xidmətlərin satın alınması
	Dövlət büdcəsinə vergilərin və digər icbari ödənişləri tam yığılması
	Dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi
	Torpaqların dövlət idarəetməsinin təşkili
	Daşınmaz əmlakın dövlət reyestrinin aparılması
	Vahid dövlət kadastırının aparılması

Qəribəlik ondadır ki, 100-dən çox rezident müəssisəsi olan sənaye zonalarının, habelə Kənd Təsərrüfatı Nazirliyi ola-ola ölkədə fəaliyyət göstərən 60-dan çox aqroparkın və iri təsərrüfatların idarə edilməsi İqtisadiyyat Nazirliyinə həvalə edilmişdir. "Azərbaycan" qəzetinin apardığı araşdırmadan görünür ki, məsələn, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ölkədə qiymətlərin artımını ancaq və ancaq xarici amillərlə izah edir. Xidmətin cavabını redaksiya belə qiymətləndirir: "Mücərrəd terminli bu uzun cümlələrdən aydınlaşan yeganə qənaət odur ki, xidmət hələ ki, araşdırmalar aparır, yəni fəaliyyəti bununla məhdudlaşır (4, 26.11.2021). Ölkə prezitentinin 20.04.2018-ci il tarixli Sərəncamı ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin əsasında mərkəzi icra hakimiyyəti orqanı Statusunda Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılmışdır. Ancaq çox təəssüf ki, 8 aydan sonra, yəni 2019-cu ilin dekabr ayında bu dövlət agentliyi yenidən İqtisadiyyat Nazirliyinin strukturuna daxil edildi. Hesab edirik ki, onun mərkəzi dövlət orqanı statusunun bərpası çox düzgün olardı. "Azərbaycan" qəzeti kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan kiçik fermerlər tərəfindən yetişdirdikləri məhsulu sərfəli qiymətə sata bilmədikləri və bu sahədə iri təsərrüfatların inhisarçılığından bəhs edən məqalə dərc etmişdir (4, qəzeti, 06.04.2022). Məqalədən çıxan nəticə ondan ibarətdir ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti haqsız rəqabət sahəsində öz vəzifələrini tələb olunan səviyyədə icra etmir. Uzun illərdir ki, müvafiq mərkəzi icra hakimiyyəti orqanı daxili bazarın qorunmasını, ayrı-ayrı mal qrupları üzrə inhisarın aradan

qaldırılmasını, aqrar sektorun əsas məhsullarının istehsal qiymətlərinin tənzimlənməsini təmin etmir.

Düzgün olaraq makroiqtisadi proqnozların hazırlanması İqtisadiyyat Nazirliyinə həvalə edilmişdir. Ancaq onların icrasına nəzarət və yerinə yetirilməsinin təmin edilməsi heç bir idarəetmə strukturunun vəzifəsinə daxil edilməmişdir. Bu da onun nəticəsidir ki, makroiqtisadi dövlət proqnozlarının hazırlanmasını, təyinatını və məzmununu tənzimləyən Nazirlər Kabinetinin hər il qəbul etdiyi qərara görə makroiqtisadi dövlət proqnozlarının təyinatı dövlət büdcəsinin proqnozlaşdırılması prosesində nəzərə alınmasından ibarətdir. Apardığım elmi araşdırmalardan qənaətim ondan ibarətdir ki, əvvəla, hal-hazırda tərtib olunan orta müddətli dövlət proqnozlarının heç bir səfərbəredici və koordinasiyaedici əhəmiyyəti yoxdur. İkinci mühüm məsələ ondan ibarətdir ki, dövlət proqramlarının, qəbul edilmiş inkişaf konsepsiyalarının, strateji yol xəritələrinin hədəflərinin icrasını təmin edən ölçüləri dövlət proqnozlarında nəzərdə tutulmur. Dövlət proqnozlarında məqsəd onun göstəricilərindən ancaq dövlət büdcəsinin formalaşdırılmasında nəzərə almaqdan ibarətdir. İqtisadiyyat Nazirliyinin 2019-cu ildə təsdiq edilmiş "Əsasnaməsi"ndə (bənd 3.0.4) deyilir ki, nazirlik dövlət büdcəsinin formalaşdırılması üçün ölkənin iqtisadi və sosial inkişafının proqnoz göstəricilərini hazırlayır. Qəribə və təəccüb doğuran da odur ki, dövlət proqnozları tərtib olunan illərdə dövlət büdcəsinin gəlirləri proqnozlara nisbətən artıqlaması ilə icra olunduğu halda, iqtisadi inkişafın digər makroiqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə kəsrlə yerinə yetirilir. Hesab edirik ki, makroiqtisadi proqnozların vaxtında və nəzərdə tutulmuş ölçülərdə icra edilməsinin ölkənin və regionların tarazlı inkişafında, istehlak bazarında qiymətlərin formalaşmasında və tələb-təklifin balanslaşdırılmasında mühüm rola malik olduğuna görə onların icrasının təmin edilməsi Nazirlər Kabinetinin və yerli icra hakimiyyəti orqanlarının vəzifələrinə daxil edilməlidir. İqtisadiyyat Nazirliyi isə onların icrası barədə müvafiq informasiyaları əldə etməklə, ölkə başçısına və hökumətə hesabat təqdim etməlidir.

Nazirliyin hər iki "Əsasnaməsi" ilə tanışlıqdan sonra qənaətə gəlirəm ki, Azərbaycanın iqtisadi və sosial inkişafına və müxtəlif iqtisadi fəaliyyətlərin koordinasiyasına cavabdehliyi məhz bu orqan daşıyır. Bir nazirliyin bu qədər yüklənməsi nə dərəcədə məqbul hesab oluna bilər. Obyektivlik xatirinə demək lazımdır ki, bir nazirliyin bu yükün öhdəsindən gəlməsi, altından çıxması mümkün deyil. Yuxarıda göstərilən faktlar bir daha sübut edir ki, Nazirlik bu vəzifələrin öhtəsindən qənaətbəxş səviyyədə gələ bilmir. Problemin həlli məqsədilə ilk öncə Azərbaycan Respublikasının əsas qanunu olan Konstitusiyanı rəhbər tutaraq İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətlərinə və vəzifələrinə yenidən baxmaq və onları Nazirlər Kabineti ilə bölüşdürmək lazımdır.

"Azərbaycan Respublikasının Konstitusiyası"nda göstərilir ki, Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır (maddə 114). Həmçinin Nazirlər Kabineti ölkə prezidentinin yuxarı icra orqanı kimi müəyyən edilmişdir. Bizim fikrimizcə, qənaətə gəlmək olar ki, Konstitusiya ilə iqtisadi və sosial sferalarda ölkə prezidentinin icra səlahiyyətləri Nazirlər Kabinetinə kredit və pul siyasətini, habelə dövlət iqtisadi və sosial təminat proqramlarının həyata keçirilməsini təmin etmək Konstitusiya ilə Nazirlər Kabinetinin səlahiyyətlərinə daxil edilmişdir (maddə 119). Burada bir məsələyə də diqqət yetirmək lazımdır. O da Nazirlər Kabinetinin fəaliyyətini tənzimləyən normativ hüquqi aktın olmamasıdır. Yeganə sənəd AR-sı Nazirlər Kabinetinin ölkə başçısı tərəfindən təsdiq edilmiş iş qaydasıdır. Bir çox postsosialist ölkələrin (məsələn, Rusiya Federasiyası) təcrübəsini nəzərə alaraq, Nazirlər Kabineti haqqında qanunun qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Mənim bu qənaətimin doğru olması elə ölkə Konstitusiyasının 119-cu maddəsi ilə də təsdiq edilir. Konstitusiyada deyilir ki, Nazirlər Kabineti ölkə prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir. Bu digər məsələlərin nədən ibarət olması həmin qanunla açıqlanmalıdır. Bu qanunla Nazirlər Kabinetinin vəzifələri və hüquqları daha ətraflı, konkret və geniş təsbit olunmalıdır. Bütünlüklə, strateji yol xəritəsində deyildiyi kimi, ölkə üzrə yüksək səviyyədə iqtisadi fəaliyyətin koordinasiyasını həyata keçirmək Nazirlər Kabinetinin borcudur (AR Konstitusiysı maddə 114, 119 və s.).

İqtisadiyyatda sahələrarası qarşılıqlı əlaqələrin koordinasiyasının əsas aləti sahələrarası balansdır ki, onun da proqnozlaşdırma dövründə müvafiq mərkəzi idarəetmə orqanları tərəfindən tərtib edilməsi tələb olunur. İqtisadiyyatın və sosial sferanın balanslaşdırılmış inkişafını təmin edə bilən balans metodundan proqnozlaşdırma, planlaşdırma və dövlət proqramlarının hazırlanması praktikasında tətbiq edilməsi zəruridir. İqtisadi fəaliyyətin koordinasiyasının elə sistemi qurulmalıdır ki, iqtisadiyyatın dövlət və özəl sektorlarının, müəssisələrin və ev təsərrüfatlarının fəaliyyətinin koordinasiyası və təkrar istehsalın ayrı-ayrı maddi əşya və dəyər göstəricilərinin uyğunlaşdırılması və əlaqələndirilməsi təmin edilsin. Başqa sözlə, istehsal (xidmət) və investisiyalar, sənaye və kənd təsərrüfatı, mal dövriyyəsi və əhalinin pul gəlirləri, əmək məhsuldarlığı və əməkhaqqı arasındakı prororsiyalar səmərəli həddə müəyyən olunmalıdır. Nəzərə alınmalıdır ki. bazar iqtisadi sistemində də proporsiyalara əməl edilməsinin mühüm şərti proqnoz və planların istehsal gücləri, xammal, yanacaq, pul, investisiyalar və digər resurs ehtiyatları ilə balanslaşdırılmasıdır. Yerli və xarici bazarların tələbini təmin etmək üçün əsas istehlak və istehsal təyinatlı mallar üzrə istehsal və istehlak balanslarının tərtib edilməsi haqqında Nazirlər Kabineti qərar qəbul etmişdir. Nazirlər Kabinetinin 2009-cu il 20 noyabr tarixli qərarı ilə təsdiq edilmiş "Ərzaq balansının tərtib olunması qaydası"na əsasən balans hər il tərtib olunmalıdır. Ancaq 2014-cü ilə dövlət proqnozlarının tərkibində İqtisadiyyat Nazirliyi tərəfindən 16 adda istehsal və istehlak balansı işlənib hazırlanmışdır. Sonrakı illərdə proqnozlaşdırma mərhələsində balans tərtib edilməmişdir. Balansın göstəricilərinə necə əməl olunmasını araşdırmaqla müəyyən etmişik ki, istehsal üzrə proqnoz göstəricilərinin 60 faizə qədəri kəsirlə yerinə yetirilmişdir. İdxalda isə əksinə olmuşdur: nəzərdə tutulduğundan 1,3 dəfə çox buğda, un və düyü, 2 dəfə çox kartof, 1,2 dəfə çox pendir idxal edilmişdir. Belə tendensiya ixracda da baş verir. Prosesin belə getməsinin səbəbi Azərbaycanda idxal-ixrac əməliyyatlarının tənzimlənməsinin təkmil mexanizmlərinə əməl olunmamasıdır. Yaranmış indiki vəziyyətdə daxili bazarın mühafizə konsepsiyasından imtina etmək hələ tezdir. Daxili bazarın mühafizəsini həyata keçirməyə hüquqi baza yaradan "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" 2016-cı ildə qəbul edilmiş qanuna riayət edilməlidir. Bu qanunun icrasını və ona nəzarəti Ticarət Nazirliyinin və Gömrük Komitəsinin həyata keçirməsi düzgün olar.

Əsas istehsal və istehlak məhsulları balansının tərtib edilməsi və ona əməl olunması mexanizmlərinin tətbiq edilməsi zəruridir. Hal-hazırda tətbiq edilən iqtisadi və inzibati metod və mexanizmlər daxili bazarda tələb və təklifin tənzimlnməsində qənaətbəxş nəticələr vermir. Bu məqsədlə yuxarıda göstərilən qanunun tələblərinə uyğun olaraq, inzibati və iqtisadi mexanizmlərdən istifadə edilə bilər. İnzibati mexanizmlərdən müəyyən müddətə idxal-ixrac kvotaları tətbiq oluna bilər. Yerli məhsulların istehsalı artdıqca və rəqabət qabiliyyəti yüksəldikcə kvotalar dəyişdirilə bilər. Eyni zamanda yerli məhsulların rəqabət apara biləcəyi xarici məhsulların idxalı müəyyən proporsiyalarda davam etdirilə bilər. Digər mexanizm

gömrük rüsumları ola bilər. Rüsumların ölçüləri elə müəyyən edilməlidir ki, idxal məhsullarının yerli bazarda satışı sərfəli olmasın.

İqtisadi tənzimləmə vasitəsi kimi təkcə dövlət proqnozlarından və regional proqramlardan istifadə etmək heç də kifayət deyil. Bazar iqtisadiyyatlı ölkələrdə mühüm iqtisadi və sosial problemləri uğurla həll etmək üçün proqnozlaşdırma ilə yanaşı, cari və perspektiv indikativ planlaşdırmadan geniş istifadə olunur. Dünya təcrübəsi sübut edir ki, müasir dövrdə dövlət və qeyri-dövlət təsərrüfat subyektlərinin koordinasiyalı fəaliyyətini təmin edən əsas vasitələrdən biri planlaşdırmadır. Fransanın Baş Planlaşdırma Komissariatı, İsrailin Strateji Planlaşdırma Nazirliyi, Hollandiyanın Mərkəzi Planlaşdırma Bürosu, Türkiyənin Dövlət Planlaşdırma Təşkilatı, eləcə də ABŞ-da, Yaponiyda, Cənubi Kareyada, Sinqapurda, Birləşmiş Ərəb Əmirliklərində müxtəlif adlar altında dövlət planlaşdırma orqanları fəaliyyət göstərir. Həmçinin beynəlxalq təcrübəni öyrənməklə bəzi postsosialist ölkələrində də planlaşdırmanı dövlət idarəetməsinin sistem yaradan vasitəsi kimi qəbul etmişlər. Bu baxımdan qəti əminliyimiz ondan ibarətdir ki, dövlət proqramlarında və proqnozlarında nəzərdə tutulan əsaslandırılmış hədəflərin və göstəricilərin vaxtında və tam həcmdə yerinə yetirilməsini təmin edən mexanizm ancaq cari və uzunmüddətli inkişaf planları ola bilər. Əgər sovetlər dönəmində plan göstəriciləri və onların həcmi təsdiq edilib qanun statusuna malik olurdularsa, indi təsdiq olunmuş hüquqi aktlara əsaslanan planlar və göstəricilər işlənib hazırlanmalıdır. Bu məqsədlə "İqtisadi və sosial inkişafa dair dövlət proqnozları və indakativ planlaşdırma haqqında" qanunun hazırlanması və təstiq edilməsi zəruridir. Proqnozlaşdırma və planlaşdırmada balans metodundan stifadə olunması zəruridir. Bu balansın qarşıdakı illər üzrə hazırlanması, normativ hüquqi akt əsasında İqtisadiyyat və Planlaşdırma Nazirliyinə, icrasına nəzarət isə Ticarət Nazirliyinə həvalə edilməlidir.

Koordinasiya mexanizmi kimi, istər dövlət və istərsə də özəl investisiyaları nəzərə almaqla, bütünlükdə ölkə üzrə illik və uzunmüddətli investisiya proqramının (investisiyalarının həcmi, istehsal güclərinin istifadəyə verilməsi və s. göstəricilər əks olunmaqla) hazırlanması düzgün olardı. Çünki dövlət məhz məhsuldar qüvvələrin düzgün yerləşdirilməsində, bütünlükdə investisiya obyektlərinin iqtisadi və sosial səmərəsinin yüksək olmasında maraqlıdır. Nəzərə alınmalıdır ki, ölkənin və regionların tarazlı iqtisadi və sosial inkişafında investisiyalar həlledici rol oynayır. Tarazlı inkişaf məhsuldar qüvvələrin düzgün yerləşdirilməsindən bilavasitə asılıdır. Bu, imkan verər ki, məhsul istehsalının, iş və xidmətlərin planlaşdırılan həcmi, habelə regionlarda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi bütünlükdə ölkənin investisiya proqramı ilə lazımi səviyyədə əlaqələndirilsin. İnvestisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi təkcə dövlət investisiyalarını yox, mülkiyyət formasından və maliyyə mənbələrindən asılı olmayaraq, bütün investisiyaları əhatə etməlidir. Ölkənin strateji valyuta ehtiyatlarının müxtəlif valyutalarda saxlanılması ilə yanaşı, onların hesabına ölkə daxilində aqrar sektorun, emal sənaye sahələrinin, regionlarda aztəminatlı ailələr üçün mənzil tikintisinin və digər prioritet sektorların inkişafına daha çox vəsait istiqamətləndirilməlidir.

"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda prioritet sənaye sahələri üzrə ərazi isehsal klasterlərinin və sənaye klasterlərinin təşviqi və inkişafı tədbirlərinin gücləndirilməsi nəzərdə tutulmuşdur. Sənaye klasterlərinin yaradılması emal sənaye sahələri üçün çox əhəmiyyətli və vacibdir. Bu sənaye sektorunun müəssisələrinin 80 faizə qədəri kiçik və orta müəssisələrdir. Strateji Yol Xəritəsində deyildiyi kimi onlar arasında biznes tərəfdaşlığı zəif inkişaf etmişdir. Onları klasterlərdə birləşdirmək məqsədəuyğundur. Bu məqsədlə Rusiyanın təcrübəsini öyrənmək və

istifadə etmək məsləhətdir. Təcrübə göstərir ki, müxtəlif sektorları təmsil edən KOS subyektləri xüsusi zonalarda klaster əsasında yaradılan infrastruktur obyektlərindən (kanalizasiya, elektrik enerjisi şəbəkəsi, laboratoriya və sınaq xidmətləri, logistika və s.) istifadə etməklə, istehsalın səmərəliliyini yüksəldə bilərlər. Yol xəritəsində göstərildiyi kimi, ölkənin bir çox emal sənaye müəssisələrinin potensialından tam istifadə olunmur, bəziləri də işləmir. Onların potensialının müəyyən edilməsi, qiymətləndirilməsi və onlardan istifadənin təmin edilməsi lazımdır. Bu səlahiyyətlərin də o dövrdəki Dövlət Əmlak Komitəsinə verilməsi tövsiyyə olunur. Bizim fikrimizcə, ölkədə sənayenin təşkili və idarə edilməsi məqsədi ilə Sənaye Nazirliyinin bərpası zəruridir.

Sənaye Nazirliyi, Ticarət Nazirliyi yaradılmalı, tikinti sektorunun idarəedilməsi funksiyaları Dövlət Tikinti və Arxitektura Komitəsinə qaytarılmalı, İqtisadiyyat Nazirliyinin bazasında İqtisadiyyat və Planlaşdırma Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin bazasında mərkəzi idarəetmə orqanı statusunda Antiinhisar Dövlət Xidməti yaradılmalıdır. "Azərbaycan 2030: sosial inkişafa dair milli prioritetlər"də sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılması nəzərdə tutulduğuna görə gəlirlərin ədalətli bölgüsü mühüm əhəmiyyət kəsb edir. Hal-hazirda Azərbaycanda gəlirlərin bölgüsü ədalətli deyil. Azərbaycanda gəlirlərin bölgüsündə problem mövcuddur. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azadılması və davamlı inkişaf Dövlət Proqramı"nda 2011-ci ildən ölkə üzrə minimum əmək haqqının və pensiyaların baza hissəsinin yaşayış minimumu səviyyəsini üstələməklə müəyyənləşdirmək, ehtiyac meyarını yaşayış minimumu səviyyəsinə çatdırmaq hədəf kimi qəbul edilmişdir. Faktiki olaraq 2014-2015-ci illlərə minimum əmək haqqı yaşayış minimumundan 1,2-1,3 dəfə az təsdiq edilmişdir. 2022-ci ilə minimum əmək haqqı yaşayış minimumundan 1,4 dəfə çox, ehtiyac meyarı isə yaşayış minimumundan az təsdiq edilmişdir. Əslində minimum əmək haqqı ilə yaşayış minimumu arasında fərq olmamalıdır. Ona görə də səmərəli bölgü mexanizmindən istifadəyə ciddi ehtiyac vardır. Ölkədə yaranan gəlirlərin bölgü mexanizmində mövcud olan problemlərin nəticəsidir ki, yaranma mərhələsində ümumi daxili məhsulun cəmisi 24-25 faizi əmək ödənişlərinə verilir, 10-11 faizə qədəri dövlətə çatır, 60-65 faizə qədəri isə təsərrüfat subyektlərinin gəlirini təşkil təşkil edir (2020-ci il). Dövlət idarəetmə strukturlarında (Prezident Aparatı, Milli Məclis, Nazirlər Kabineti, hüquq mühafizə orqanları və s.) aylıq əmək haqqı ayrı-ayrılıqda müxtəlif yanaşmalarla təyin edilir. Nəticədə süpürgəçinin əməyi alimin əməyindən yüksək qiymətləndirilir. Sosial yönümlü iqtisadi inkişaf modelini seçmiş Avropa ölkələrində əmək ödənişləri ÜDM-nin 40-60 faizinə bərabər olur. Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının hesablamalarına görə 2012-ci ildə dövlət büdcə xərclərinin də yalnız 17 faizə qədərini əmək ödənişləri təşkil etmişdir (4, 14.12.2012). 2018-ci ilə bu göstərici 20,3 faiz nəzərdə tutulmuşdur. Gəlirlərin bölüşdürülməsinə mənfi təsir edən səbəblərdən biri əmək haqqının və sosial müavinətlərin əməyin ödənilməsinin minimum məbləği əsasında müəyyən edilməsi qaydasından 1996-cı ildən Azərbaycanda istifadə edilməməsidir. Beynəlxalq əmək təşkilatının üzvü olan Azərbaycanda onun qəbul etdiyi qaydadan istifadə olunmur. Bu o deməkdir ki, milli prioritetin hədəfinin icrasını təmin etmək üçün bütünlükdə ölkə üzrə əmək haqqının və sosial müavinətlərin əməyin ödənilməsinin minimum məbləği əsasında müəyyən edilməsi qaydasından istifadə edilməsi zəruridir. Bu məqsədlə ölkə prezidentinin fərmanı verilməlidir. Eyni zamanda Azərbaycan Respublikasının Əmək Məcəlləsindəki "minimum əmək haqqı" anlayışının Beynəlxalq Əmək Təşkilatının 131 nömrəli Konvensiyasında verilən tərifə uyğunlaşdırılması tələb olunur. Əmək Məcəlləsində deyilir ki, minimum əmək haqqı ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən

aşağı səviyyəsini müəyyən edən sosial normadır (maddə 155.2). Konvensiyaya əsasən minimum əmək haqqı işçinin və onun ailəsinin tələbatını təmin etməlidir, həyat səviyyəsini lazım olan səviyyədə saxlamağa imkan verməlidir.

Gəlirlərin bölgüsünə mənfi təsir edən səbəblərdən biri də Azərbaycanda təbii sərvət yataqlarının (neft-qaz, dəmir filizi, qızıl, alunit və s.) hasilatın pay bölgüsü müqaviləsi ilə qeyri-rezidentlərin istismarına verilməsidir. Bu müqaviləyə görə qeyri-rezidentlər illik məhsul satışından əldə etdikləri ümumi mənfəətdən cari xərcləri (maya dəyəri) və əsaslı kapital xərclərini çıxdıqdan sonra qalan mənfəəti milli dövlətlə bölüşdürürlər. Qeyd edim ki, 1994-cü ildə "Əsrin müqaviləsi" dövründə Azərbaycanın kifayət qədər maliyyə resursları olmadığına görə hasilatın pay bölgüsü müqaviləsindən istifadə etmək məcburiyyətində qalmışdır. Ancaq sonrakı illərdə hasilatın pay bölgüsündən istifadə Azərbaycan dövləti üçün məqbul deyildi.

Nəticə

Azərbaycanda müstəqilliyin ilk 15 ili ərzində bazar iqtisadi sistemində dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılması konsepsiyasından istifadə edilmişdir. Bu konsepsiyaya da uyğun olaraq bazar iqtisadi sistemini tənzimləyən normativ hüquqi baza yaradılmışdır. Qəbul edilmiş inkişaf konsepsiyalarının, dövlət proqnozlarının, sahəvi və regional dövlət proqramlarının əsas hədəflərinin icrası tam təmin edilmir. Bunun da əsas səbəbi iqtisadi və sosial inkişafın idarə edilməsi sistemindəki və tənzimləmə mexanizmlərindəki çatışmamazlıqlardan və nöqsanlardan ibarətdir. Bu da institusional islahatların aparılmasını zəruri edir. İqtisadi idarəetmə və tənzimləmə "yükünün" dövlət orqanları arasında "səmərəli" və "ədalətli" bölgüsü, iqtisadi yönümlü dövlət orqanlarının fəaliyyətinin səmərəli koordinasiyası, onların hüquq və səlahiyyətləri ilə məsuliyyətlərinin balanslaşdırılması təmin edilməlidir.

Azərbaycanda dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılması, iqtisadiyyatla məşğul olan mərkəzi idarəetmə orqanları arasında vəzifə bölgüsünün və koordinasiya sisteminin önəmli olmaması qədul edilmiş qərarların həyata keçirilməsində arzu olunan nəticələri verməmişdir. Ölkədə sahələrin, istehsalların və əmtəə bazarının koordinasiyalı inkişafına əhəmiyyətin verilməməsi kənd təsərrüfatı, yüngül sənaye və istehlak bazarı arasında istehsal-ticarət əlaqələrinin zəifləməsinə gətirib çıxarmışdır.

Nazirlər Kabinetinin ölkə Konstitusiyası ilə təsbit edilmiş vəzifələri İqtisadiyyat Nazirliyinə həvalə edilmişdir. 15 fəaliyyət sahəsi üzrə İqtisadiyyat Nazırliyi dövlət siyəsətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır ("Əsasnamə", bənd 1.1). Bu 15 sahədən ancaq birinin, yəni makroiqtisadi proqnozların hazırlanması və onların icrasına nəzarətin nazirliyin səlahiyyətinə aid edilməsi düzgün olar. Qalan sahələrdə dövlət siyasətini və tənzimləməni həyata keçirən orqan Nazirlər Kabineti olmalıdır (Azərbaycan Respublikasının Konstitusiyası, maddə 114). 2016-cı ildə ölkə başçısı tərəfindən təsdiq edilmiş Strateji Yol Xəritəsində nəzərdə tutulduğu kimi, iqtisadi inkişafın yüksək səviyyədə koordinasiyası təmin edilməli, idarəetmə strukturu və mexanizmləri təkmilləşdirilməli və iqtisadi fəaliyyətə dövlət nəzarəti gücləndirilməlidir. Hal-hazırda tərtib olunan orta müddətli dövlət proqnozlarının heç bir səfərbəredici və koordinasiyaedici əhəmiyyəti yoxdur. Həmçinin dövlət proqramlarının, qəbul edilmiş inkişaf konsepsiyalarının, strateji yol xəritələrinin hədəflərinin icrasını təmin edən ölçüləri dövlət proqnozlarında nəzərdə tutulmur. Dövlət proqnozlarının hazırlanmasını, təyinatını və məzmununu tənzimləyən Nazirlər Kabinetinin hər il qəbul etdiyi qərardan aydın olur ki, dövlət proqnozlarının təyinatı onun göstəricilərindən ancaq dövlət büdcəsinin formalaşdırılmasında nəzərə almaqdan ibarətdir. Makroiqtisadi proqnozların vaxtında və nəzərdə tutulmuş ölçülərdə icra edilməsinin ölkənin və regionların tarazlı inkişafında, tələb-

təklifin balanslaşdırılmasında, istehlak qiymətlərinin stabil olmasında mühüm rola malik olduğuna görə bu məqsədlər baxımından onların təyinatı genişləndirilməli və icrasının təmin edilməsi Nazirlər Kabinetinin və yerli icra hakimiyyəti orqanlarının vəzifələrinə daxil edilməlidir. İqtisadiyyat Nazirliyi isə onların icrası barədə müvafiq informasiyaları əldə etməklə ölkə başçısına və hökumətə hesabat təqdim etməlidir.

Dövlət proqnozları tərtib olunan illərdə dövlət büdcəsinin gəlirləri proqnozlara nisbətən artıqlaması ilə icra olunduğu halda, iqtisadi inkişafın digər makroiqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə kəsirlə yerinə yetirilir. İqtisadiyyatda sahələrarası qarşılıqlı əlaqələrin koordinasiyasının instrumenti sahələrarası balansdır ki, onun da proqnozlaşdırma dövründə müvafiq mərkəzi idarəetmə orqanları tərəfindən tərtib edilməsi tələb olunur. İqtisadiyyatın və sosial sferanın balanslaşdırılmış inkişafını təmin edə bilən balans metodundan proqnozlaşdırma, planlaşdırma və dövlət proqramlarının hazırlanması praktikasında tətbiq edilməsi zəruridir.

İqtisadi fəaliyyətin koordinasiyasının elə sistemi qurulmalıdır ki, iqtisadiyyatın dövlət və özəl sektorlarının, müəssisələrin və ev təsərrüfatlarının fəaliyyətinin koordinasiyası və təkrar istehsalın ayrı-ayrı maddi əşya və dəyər göstəricilərinin uyğunlaşdırılması və əlaqələndirilməsi təmin edilsin. Başqa sözlə, istehsal (xidmət) və investisiyalar, sənaye və kənd təsərrüfatı, mal dövriyyəsi və əhalinin pul gəlirləri, əmək məhsuldarlığı və əməkhaqqı arasındakı prororsiyalar səmərəli həddə müəyyən olunmalıdır. Nəzərə alınmalıdır ki. bazar iqtisadi sistemində də proporsiyalara əməl edilməsinin mühüm şərti proqnoz və planların istehsal gücləri, xammal, yanacaq, pul, investisiyalar və digər resurs ehtiyatları ilə balanslaşdırılmasıdır.

İqtisadi tənzimləmə vasitəsi kimi təkcə dövlət proqnozlarından və regional proqramlardan istifadə etmək heç də kifayət deyil. Bazar iqtisadiyyatlı ölkələrdə mühüm iqtisadi və sosial problemləri uğurla həll etmək üçün proqnozlaşdırma ilə yanaşı, cari və perspektiv indikativ planlaşdırmadan geniş istifadə olunur. Dünya təcrübəsi sübut edir ki, müasir dövrdə dövlət və qeyri-dövlət təsərrüfat subyektlərinin koordinasiyalı fəaliyyətini təmin edən əsas vasitələrdən biri planlaşdırmadır. Bu baxımdan dövlət proqramlarında və proqnozlarında nəzərdə tutulan əsaslandırılmış hədəflərin və göstəricilərin vaxtında və tam həcmdə yerinə yetirilməsini təmin edən mexanizm ancaq cari və uzunmüddətli indikativ inkişaf planları ola bilər. “Makroiqtisadi dövlət proqnozları və planlaşdırma haqqında” qanun qəbul edilməlidir.

Koordinasiya mexanizmi kimi, istər dövlət və istərsə də özəl investisiyaları nəzərə almaqla, bütünlükdə ölkə üzrə illik və uzunmüddətli investisiya proqramının (investisiyalarının həcmi, istehsal güclərinin istifadəyə verilməsi və s. göstəricilər əks olunmaqla) hazırlanması düzgün olardı. Çünki dövlət məhz məhsuldar qüvvələrin düzgün yerləşdirilməsində, bütünlükdə investisiya obyektlərinin iqtisadi və sosial səmərəsinin yüksək olmasında maraqlıdır.

Ölkənin emal sənaye müəssisələrinin potensialının müəyyən edilməsi, qiymətləndirilməsi və onlardan istifadənin təmin edilməsi məqsədilə Strateji Yol xəritəsində bu səlahiyyətlərin o dövrdəki Dövlət Əmlak Komitəsinə verilməsi tövsiyyə olunur. Ancaq ölkədə sənayenin təşkili və idarə edilməsi məqsədi ilə Sənaye Nazirliyinin bərpası zəruridir. Sənaye Nazirliyi, Ticarət Nazirliyi yaradılmalı, tikinti sektorunun idarəedilməsi funksiyaları Dövlət Tikinti və Arxitektura Komitəsinə qaytarılmalı, İqtisadiyyat Nazirliyinin bazasında İqtisadiyyat və Planlaşdırma Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət

Xidmətinin bazasında mərkəzi idarəetmə orqanı statusunda Antiinhisar Dövlət Xidməti yaradılmalıdır.

"Azərbaycan 2030: sosial inkişafa dair milli prioritetlər"də sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılması nəzərdə tutulduğuna görə gəlirlərin ədalətli bölgüsü mühüm əhəmiyyət kəsb edir. Hal-hazirda Azərbaycanda gəlirlərin bölgüsü ədalətli deyil, Azərbaycanda gəlirlərin bölgüsündə problem mövcuddur. Milli prioritetin hədəfinin icrasını təmin etmək üçün bütünlükdə ölkə üzrə əmək haqqının və sosial müavinətlərin əməyin ödənilməsinin minimum məbləği əsasında müəyyən edilməsi qaydasından istifadə edilməsi zəruridir. Bu məqsədlə ölkə prezidentinin fərmanı verilməlidir. Eyni zamanda Azərbaycan Respublikasının Əmək Məcəlləsindəki "minimum əmək haqqı" anlayışının Beynəlxalq Əmək Təşkilatının 131 nömrəli Konvensiyasında verilən tərifə uyğunlaşdırılması tələb olunur. Əmək Məcəlləsində deyilir ki, minimum əmək haqqı ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normadır (maddə 155.2). Konvensiyaya əsasən minimum əmək haqqı işçinin və onun ailəsinin tələbatını təmin etməlidir, həyat səviyyəsini lazım olan səviyyədə saxlamağa imkan verməlidir.

Uzun illərdir ki, müvafiq mərkəzi icra hakimiyyəti orqanı daxili bazarın qorunmasını, ayrı-ayrı mal qrupları üzrə inhisarın aradan qaldırılmasını, aqrar sektorun əsas məhsullarının istehsalçı qiymətlərinin tənzimlənməsini təmin etmir. Prosesin belə getməsinin səbəbi Azərbaycanda idxal-ixrac əməliyyatlarının tənzimlənməsinin təkmil mexanizmlərinə əməl olunmamasıdır. Yaranmış indiki vəziyyətdə daxili bazarın mühafizə konsepsiyasından imtina etmək hələ tezdir. Daxili bazarın mühafizəsini həyata keçirməyə hüquqi baza yaradan "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" 2016-cı ildə qəbul edilmiş qanuna riayət edilməlidir. Bu qanunun icrasını və ona nəzarəti yaradılması zəruri olan Ticarət Nazirliyinin və Gömrük Komitəsinin həyata keçirməsi düzgün olar. 1995-ci ildə qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda amortizasiya ayırmalarının investisiya fəaliyyətinin maliyyə mənbələrindən biri kimi nəzərdə tutulmuşdur (maddə 9). Lakin beynəlxalq təcrübəyə və iqtisadi nəzəriyyəyə zidd olaraq, 2022-ci ilin iyul ayında qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" qanunda amortizasiya ayırmalarının investisiyaların maliyyə mənbəyi olması haqqında müddəa nəzərdə tutulmamışdır. Bununlada illik məbləği 7,3 mlyard man. (2021-ci il) olan pul vəsaitindən investisiya kimi istifadə edilməsi imkanından Azərbaycan dövləti məhrum edilmişdir. Amortizasiyadan istifadə haqqında qanunun qəbul edilməsi, xüsusi ilə emal sənayesi və aqrar sektorun investisiya təminatı baxımından zəruridir.

Ədəbiyyat

1. "Azərbaycan 2020": gələcəyə baxış İnkişaf Konsepsiyası.
2. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya".
3. "Azərbaycan 2030": Sosial inkişafa dair Milli prioritetlər.
4. "Azərbaycan" qəzeti, 26.11.2021; 06.04.2022; 14.12.2012.
5. Azərbaycan Respublikasının Konstitusiyası.
6. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı".
7. Azərbaycan Respublikasının Əmək məcəlləsi, maddə 155.2, 2021-ci il nəşri.
8. "Azərbaycanın statistik göstəriciləri", "Azərbaycanın sənayesi", "Azərbaycanın milli hesabları", "Azərbaycanın xarici ticarəti", "Azərbaycanın regionları", "Azərbaycanda tikinti", Dövlətstatkom, Bakı, 2022.

Тофик Гусейнов

Совершенчтвование институционального регулирования в экономическом развитии Азербайджана

Резюме

В статье анализируются нормативно-правовая база, используемая регулировании социально-экономического развития страны, права и обязанности центральных государственных структур, координация их деятельности. Дается обоснование совершенствования координации их деятельности. В системе регулирования особое внимание уделяется правам и обязанностям Министерства Экономики и Кабинета Министров Азербайджанской Республики. Изучается опыт США, Японии, Турции и Швеции по государственному регулированию экономики.

Ключевые слова: *экономические механизмы регулирования, институциональное регулирование, импорт, экспорт, защита внутреннего рынка, индикативное планирование, амартизационное отчисление, равномерное региональное развитие, промышленный кластер, мправедливое распредедение доходов в масштабе страны.*

Tofik Huseynov

Improvement of institutional regulation in the economic development of Azerbaijan

The article analyzes the regulatory framework used in the regulation of socio-economic development of the country, the rights and obligations of central govermment structures, coordination of their activities. The justification for improving the coordination of their activities are given. In the regulatory system, special attention is paid to the rights and duties of the Ministry of Economy and the Cabinet of Ministers of the Republic of Azerbaijan. The experience of the USA, Japan, Turkey and Sweden on state regulation of the economy are described.

Keywords: *economic regulatory mechanisms, institutional regulation, import-export, protection of the domestic market, indicative planning, depreciation deduction, uniformregional development, industrial cluster, fair distribution of income on a national scale.*

Elmi redaktor: i.e.d. Y.Məmmədov
Daxil olub: 09.11.2023.
Çapa qəbul olunub: 18.11.2023.